# Osman Sarıvəlli dünyasına bir səyahət

## Osman Sarıvəlli-120



Osman Sarıvəlli, şəxsiyyətinə həmişə dərin hörmət bəslədiyim və yaradıcılığını ən çox sevdiyim şairlərdəndir. Yeniyetmə və gənclik yaşlarımdan onun"Ay mamoğlu", "Bu yerlər","Günah onun özündədi", "Dərdin alım" və s.şeirləri aşıqların dilindən eşitdiyim, ən çox sevdiyim və yaddaşıma köçmüş şeirlərdən idi.

Doğrusu onun yaradıcılığı həmişə məni düşündürmüş, lakin müraciət etməyə cürət etməmişdim. Bu yazını yazmağa da məni dostum, görkəmli ədəbiyyatşünas alim, professor Rüstəm Kamal sövq etdi. Düşündük ki, ürəkdən gələn və səmimiyyətdən doğan bu yazı ustad şairin 120 illik yubileyinə bir növ hədiyyə olar.

Həyatının uşaqlıq və yeniyetmə dövrü, yaradıcılığının ilk illəri XX əsrin müharibələr və inqilablarla müşayət olunan mürəkkəb, ziddiyyətlərlə və təbəddülatlarla dolu bir dövrünə düşən,sonradan məşum repressiya illəri ilə müşayət olunan yaşantıları şairin yaradıcılığından yan keçməmiş, bütün ağrı-acıları, hiss və duyğuları incəliyi və kövrəkliyi ilə oz poetik əksini tapmışdır.

"Yaşadım çöllərdə on il, on beş il,
Yağışda, yağmurda günüm olmadı" deyən şair, məşhur "Bənövşə" şeirində ömrünün ürək dağlayan yeniyetmə çağlarını aşağıdakı poetik ifadələrlə təsvir edir:

**Dumanlı səhərlər, çənli axşamlar,**
**Olduqca məskənim, olduqca yuvam,**
**Yamaqlı şalvarım, yamaqlı çuxam,**
**Vüqarlı başımı saldı aşağı,**
**Çıxdı gözlərimə qəlbimin dağı...**
**Ələmdən, kədərdən qaça bilmədim,**
**Ciyərim həsrətlə alışdı, yandı,**
**Könlümü kimsəyə aça bilmədim,**
**Çırıq paltarımdan eşqim utandı.**

Bu sətirləri oxuduqca şairin məhrumiyyət və məşəqqətlərlə dolu uşaqlıq və yeniyetmə çağları göz önündə canlanır.

Osman Sarıvəlli çoxşaxəli yaradıcılığa malik qüdrətli söz ustadı olmaqla müxtəlif mövzularda çox maraqlı poeziya nümunələri yaratmışdır. Şair yaradıcılığının ilk illərində ölkədə gedən ictimai-siyasi dəyişikliklər, inqilablar fonunda, bu hadisələrdən ruhlanan bir çox yaradıcı gənclər kimi həyatlarında tezliklə dəyişikliklərin baş verəvcəyinə inanır və bunları da yaradıcılığında əks etdirirdi.

İkinci Dünya Müharibəsi illərində Cənubu Azərbaycana ezam olunan şair, burda olduğu müddətdə xalqın yaşam tərzi, dolanışığı, məişəti və ağır həyat tərzi ilə yaxından tanış olan, həssas qəlbə, böyük duyğuya sahib olan şair, gördüklərini, şahidi olduqlarını ürək ağrısı ilə həmin illərdə yazdığı "Aşığın ayrılıq mahnısı", "Təbriz gözəli", "Birinci dərs", "A dostlar ", "Dəvə karvanı" "Körpə quzu" və digər şeirlərində yana-yana, böyük ürək ağrısı ilə qələmə almışdır. O, həyatının ayrı-ayrı məqamlarını, yaşantılarını öz əsərlərində ən çox əks etdirən müəlliflər sırasındadır. Əslində onun yaradıcılığına diqqət yetirsək, görərik ki, yaşadığı 85 illik ömrü və yaradıcılığı ilə bir "Osman Sarıvəlli "dastanını yratmışdır və həmin dastanın baş qəhrəmanı da onun özüdür. Onun hər bir şeirində böyük şairin dastan ömrünün acılı-şirinli anları, məqamları qələmə alınmışdır. Bu sıradan onun "Atamın oğlu", "Çobanın məktubları", "Mənim ömrüm", "Bənövşə", "Tut ağacı" və digər şeirləri daha səciyyəvidir.

Aşıq sənətinə, saza-sözə, dastanlarımıza, aşıq havalarına , ümmumiyyətlə folklorumuza ilahi bir sevgi ilə bağlı olan ustad özü də gözəl saz çalmış, həmin dövrün aşıqları ilə dostluq eləmiş, aşıqlara, saz havalarına , silsilə şeirlər həsr etmişdir. "Ay mamaoğlu", "Aşıq dostuma", Əmrahın sazı", "O kimdir başımda çalır, çağırır", "Sazın dərdi","Düşübdür", "De gəlsin " və digər şeirləri son dərəcə səmimi, poetikv və maraqlı olmaqla, həm o dövr, həm də çağdaş aşıqlarımızın yaddaşına köçmüş, onların repertuarlarında yer almışdır.

Sözsüz ki, bu yazını yazmaqda məqsədim heç də Osman Sarıvəlli yaradıcılığını bütünlüklə təhlil etməkdən ibarət deyil və mən heç o iddiada da deyiləm. Bununla belə bu yazıda şairin yaradıcılığının zirvəsi hesab edilən "Gətir, oğlum , gətir" poeması üzərində xüsusilə dayanmaq istəyirəm.

Məlumdur ki, öyüd, məsəl, nəsihət xarakterli şeirlərin də daxil olduğu didaktik ədəbiyyat hələ qədim dövrlərdən Yaxın Şərqdə olduğu kimi Azərbaycanda da geniş yayılmış və ta qədimdən başlayaraq, bu günümüzə qədər gəlibçıxmışdır. O da məlumdur ki, bu janr ədəbiyyat nümunələri şifahi xalq ədəbiyyatında, xüsusilə aşıq poeziyasında daha çox rast gəlinir.

Min ilə yaxın bir müddətdir ki, varlığı ilə qürur duyduğumuz, öz əsərləri, şeir və poemaları, müdrik fikirləri ilə, aforizmləri və nəhayət dünya şöhrətli "Xəmsə"si ilə təkcə özümüzü deyil, bütün bəşəriyyəti heyran qoyan, poeziyamızın peyğəmbəri Nizami Gəncəvinin müraciət etdiyi, poeziyamıza gətirdiyi mövzulardan biri, ən gözəl didaktik ədəbiyyat nümunəsi hesab edilən "Oğluma nəsihət"əsəridir. Nizamidən sonra bu mövzuda Xaqani Şirvani, Məhəmməd Füzuli, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Qasım bəy Zakir, daha sonra Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm və digərləri maraqlı nümunələr yaratmışlar.

Osman Sarıvəlli şifahi xalq ədəbiyyatının, aşıq sənətinin, folklorumuzun, xalq ruhunun geniş yayıldığı bir mühitdə, Qazax-Borçalı mahalının coğrafi mərkəzində yerləşən Şıxlı (Sarıvəlli) kəndində dünyaya göz açmış, böyümüş və yaradıcılığına da bu mühitin ciddi təsiri olmuş, əslində elə şifahi xalq ədəbiyyatı və aşıq şeiri üstə ədəbiyyata gəlmişdir. Bu baxımdan onun da didaktik janra müraciət etməsi təsadüfi deyil və düşünürəm ki, şairin yaradıcılığının zirvəsi hesab edilən "Gətir oğlum, gətir" poeması ilə bu janrın ən gözəl nümunələrindən birini yaratmışdır.Təsadüfi deyil ki, xalq şairi Bəxtiyar Vahabzadə bu poemanı "Xalq ruhunun himni" adlandırır və "Sovet dövrü Azərbaycan şeirinin şah əsəri" hesab edirdi. Bir qayda olaraq nəsihət və öyüdlər insanın, eləcə də şairlərin ixtiyar yaşında yazılır. 1943-cü ildə qələmə alınmış bu əsəri oxuduqca adama elə gəlir ki, əsər 38 yaşılı bir şairin yox, 80-85 yaşlı müdrik bir müdrikin nəsihətləridir. Əslində bu nəsihət böyük söz ustadının təkcə oğlu, körpə Babəkə deyil, bütünlüklə bütün övladlara , gənclərə ünvanlanmış nəsihətləridir. Poema şairin oğluna maraqlı bir xatırlatması ilə başlayır və bu başlanğıcda əslində özu ilə oğlunu yaşadığı mühiti, yaşam tərzini müqayisələndirir:

**Mən kənddə böyüdüm, sənsə şəhərdə,**
**Sən beşikdə yatdın, mənsə yəhərdə.**
**Yatdım boz otlaqda boz dovşan kimi...**
**Gözümüz dünyaya açılan kimi,**
**Mən çomaq götürdüm, sən kağız, qələm,**
**Çomaq bir aləmdir, qələm bir aləm...**

Məzmun və həcm etibarı ilə fərqlənən, 13 hissədən ibarət bu poemada müəllif yüksək sənətkarlıq və poetik qüdrətlə oğlu körpə Babəkə həm öyüd verir, həm də qarısında müqəddəs vəzifələr müəyyənləşdirir. Əsəri oxuduqca şairin fikirlərinin vüsətinin şahidi olursam. Şairin xəyalında, arzularında balaca Babək tədricən böyüyür və böyüdükcə şairin ona qarşı arzu vəistəkləri də, həm də bu arzu istəklərlə yanaşı gözləntiləri də böyüyür və bu vüsətə uyğun olaraq şairin nəsihətləri dəfərqlənir, daha da ibratəmiz xarakter alır:

**Dolandı sənələr, dolandı aylar,**
**Gah dondu, gah coşdu, bulandı çaylar...**
**...Odur hey fırlanır bayaqdan bəri,**
**Girdablar içində saman çöpləri.**
**Onları seyr edib, düçündükcə sən,**
**Batıb burulğanda, itir gözündən.**
**Həyatın da belə girdabları var,**
**Qərq olur üzməyi bacarmayanlar...**

Bu misralar şairin balaca, lakin xəyalında artıq böyümüş Babəkə ilk öyüdü kimi təqdim olunur. Üzməyi bacarmırsansa dəryaya baş vurma, sularda qərq olarsan.

Bu bir həqiqətdir ki,"Vətən" anlayışı hər bir fərdin ən incə və ən ali hisslərinin ünvanıdır. Vətəni sevməyin, onu sevdirməyin başlanğıcı ana südü , ana laylası, ata öyüdü , ata nəsihətidir. Bu sevginin bir yolu da onun nağıllarından, dastanlarından, bayatılarından, folklorundan xalq ədəbiyyatından keçir. Ustad sənətkarımız Osman Sarıvəlli də ən gözəl, ən ülvi və ən kövrək şeirləri məhz bu mövzuya həsr etmişdir.Lakin həmin hisslər poemada daha güclü, daha qabarıq, sadə, səmimi və poetik şəkildə təqdim olunur və poemanın bu hissəsinin sonunda müəllifin öyüdü atalar misalı kimi səslənir "Sən axtar çəkinmə, axtaran tapar" :

**... Xalqın əzəməti, fikri, xəyalı,**
**Onun hissi zövqü, ağlı, kamalı,**
**Sanma bir qılıncda, bir hünərdədir,**
**Onlar bu sazlarda, bu sözlərdədir...**
**...Hər kiçik bayatı xalqın səsidir,**
**Kamal dünyasının xəzinəsidir,**
**Nağıllar dərindir bir ümman kimi,**
**Xəyal göylərində uç tərlan kimi,**
**"Boş əfsanələr"də də haqiqət ara,**
**Sən axtar çəkinmə, axtaran tapar.**

Poemanı oxuduqca, şairin dilinin təmizliyinə, saflığına, sadəliyinə və gözəlliyinə qibtə etməli olursan. Müəllif nəsihətlərini təbiət təsvirləri ilə paralel ifadə edərək, metaforalarla, təşbehlərlə zənginləşdirməsi onun nəsihətamiz fikirlərini daha təsirli, daha anlaşılan və təlqin edici edir. Poemadan bir parçaya diqqət edək:

**Odur, görürsənmi, ağ buludların,**
**Bəyaz yanağında qara xal süzür.**
**Xal deyil, vüqarlı bir qartal süzür...**
**...Quzum, könlüm kimi uçmaq istəsən,**
**Əzəl yaxşı bağlan, bu torpağa sən.**

Osman Sarıvəlli yaradıcılığına kiçik bir nəzər yetirmək deməyə əsas verir ki, o, hansı mövzuya müraciət edibsə, nədən yazıbsa əsərlərinin hamısnın dili son dərəcə sadə və səimi, xalq ruhuna doğmadır. Onun əsərlərində dağ havasının saflığı, qayalardan süzülüb gələn dupduru bulaq suyunun sərinliyi var. Bu sadə və səmimilik, ürəyəyatımlılıq, həssalıq və duyumluq müəllifinə ümumxalq sevgisi qazandırıb, həm şəxsiyyəti, həm də yaradıcılığı yaddaşlara köçüb. Mən çalışdım ki, ustad şairimizin yaradıcılığına bir səyahət etməklə onun əsas məqamləri barədə qısa da olsa müasir oxuculara məlumat verim. Məqsədimə çatdığımı oxucular deyə bilər.

*Şairin ruhuna ehtiramla .*



Ramiz Göyüş,
Yazıçı-publisist